Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Ədəbiyyatımızda Rəsul Rza əzəməti

Mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

**Bakı – 2020**

**Tərtibçi:** **Könül Səmədzadə**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Ədəbiyyatımızda Rəsul Rza əzəməti:** Xalq şairi Rəsul Rzanın anadan olmasının 110 illik yubileyi münasibətilə kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.K.Səmədzadə; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2020.- 23s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

## Ədəbiyyatımızda Rəsul Rza əzəməti

***Od nə çəkdi-küldən soruş!***
***Baş nə çəkdi-dildən soruş!***
***Hansı şerim, hansı sözüm***
***Yaşayacaq məndən sonra?***
***Mən bilmərəm, eldən soruş!...***
Xalq şairi Rəsul Rza

1910-cu il mayın 19-da Göyçayda, Mirzə İbrahim Məmmədxanlı və Məryəm xanımın ailəsində doğulan Rəsul Rza Azərbaycan ədəbiyyatına danılmaz yeniliklər gətirmiş, çağdaş şeirimizdə tamamilə yeni bir yol açmış və bu yolla ömrünün sonuna qədər ardıcıl addımlamış şairdir. Rəsul Rza həm də yalnız doğuluş və ölüm tarixinə, yaradıcılıq illərinə görə deyil, sənətçi varlığının bütün mahiyyəti etibarilə XX əsr şairidir.

Rəsul Rza - Xalqımızın poetik təfəkkürlü, bu vüqarlı oğlunun adı çəkiləndə, qeyrət, namus, kişilik nişanələrini xatırlayırsan. Hələ sağlığında Azərbaycanın hüdudlarını çoxdan aşaraq bir sıra ölkələrdə, hətta Afrika ölkələrində tanınmış və onları da heyrətdə qoymuşdu. Rəsul Rza yaradıcılığı özünün əlvanlığı ilə sevilir. Onun qələmindən gözəl poemalar, oçerklər, pyes, qiymətli ədəbi-tənqidi məqalələr çıxmışdır. Onun lirik şeirlərində əsrin fəlsəfi təfəkkürü, müasir insanın məhəbbəti, baş verən hadisələrə münasibəti öz əksini tapmışdır. Şair cəmiyyətin əxlaq normalarından kənara çıxanlara, şəxsi mənfəət güdənlərə amansız bir kinayə ilə gülmüşdür.

20-ci illərin sonu Rəsul Rzanın sənət aləminə qədəm basdığı illər yeni şeirin intibah dövrü idi. Poeziya sürətlə dəyişən varlıqla ayaqlaşmağa çağırır, ictimai-siyasi

mübarizənin əlamətdar hadisələri, xalqın genişlənən hərtərəfli fəaliyyəti onun yaradıcılığının əsas mövzusu olurdu. Şeiri gündəlik mətbuat səhifələrində, fəhlə yığıncaqları tribunalarında, kəndlərdə keçirilən yığıncaqlarda zəhmətkeşləri yenilik uğrunda mübarizəyə səsləyir, sadəliyi və səmimiliyi ilə milyonların qəlbinə yol tapırdı. Yeni şeirin yaradıcıları sırasında irəliləyən, özünəməxsus poetik kəşfləri ilə diqqəti cəlb edən gənc Rəsul Rzanın gücü varlıqla əlaqəsinin möhkəmliyində, qırılmazlığında idi. Rəsul Rzanın lirik şeirlərində və poemalarında SSRİ xalqlarının, ilk növbədə Azərbaycan xalqının həyatında baş verən mühüm tarixi nailiyyətlər, gözəl əxlaqi sifətlər, humanizm, beynəlmiləlçiliyi, bir sözlə, yeniləşən, zənginləşən xalq təfəkkürü öz yerini tutmuşdur. Şairin əsərlərinin mövzu dairəsi çox genişdir. Bəşəriyyəti narahat edən elə bir ciddi problem yoxdur ki, bu görkəmli sənətkarın yaradıcılıq obyektinə çevrilməsin. Elə buna görə də tərcüməçilər onun əsərlərinə dönə-dönə müraciət etmiş, şairin şeirləri SSRİ, eləcə də bir çox dünya xalqlarının dillərinə tərcümə olunmuşdur. “Çapey”, “Çinar”, “Qanadlar”, “Vətən”, “Günəşin sorağında”, “Könül səsləri”, “Dözüm”, “Duyğular, düşüncələr”, “Pəncərəmə düşən işıq”, “Vaxt var ikən”, “Calasan günü günə”, “Dünən, bu gün, sabah”, Həyat duyumları”, “Güneylər, quzeylər” və s. şeir kitablarında görkəmli şair qələminin məhsulu olan qiymətli sənət inciləri toplanmışdır. Rəsul Rza həm də gözəl poemalar müəllifi kimi tanınmışdır. Onun “Bir gün də insan ömrüdür”, “Füzuli”, “Qızıl gül olmayaydı”, “Xalq həkimi”, “Xalq şairi”, “Bir min dörd yüz on səkkiz” və s. əsərləri Azərbaycan sovet poemalarının ən gözəl nümunələridir. Rəsul Rza həmçinin, özünün yaradıcılıq metodu, sənətkarlıq xüsusiyyəti ilə də həmişə fərqlənən orjinal şairdir. Poeziya aləmində, bu

sənətkarın öz üslubu, öz dəstixətti var. Onun sənət aləminin məzmun və mündəricəsinə diqqət yetirdikdə bu sənətin yalnız Rəsul Rzaya məxsusluğunu çətinlik çəkmədən görürsən. Rəsul Rzanın poeziyasında Azərbaycan xalqının tarixinin mühüm mərhələlərinə nəzər salınmış, xalqın azadlığı və səadəti yolunda fədakar mübarizə aparmış qılınc və qələm qəhrəmanlarının surəti yaradılmışdır. Babək, Füzuli, Nəsimi, Sabir, Nəriman Nərimanov, Mikayıl Müşfiq… Böyük Vətən müharibəsində çoxmillətli sovet xalqının misilsiz qəhrəmanlığı və dözümü, müharibədən sonra genişlənən quruculuq işlərinin pafosu, sülh uğrunda mübarizə. Rəsul Rzanın poemalarında həmçinin Azərbaycan xalqının tarixinin və inqilabdan sonrakı həyatının bir sıra parlaq səhifələri də öz əksini tapmışdır. Şairin poema yaradıcılığı minillik tarixə malik Azərbaycan poeziyasına özünəməxsus yenilik, təravət gətirmişdir.

**Yubiley tədbirlərinin keçirilməsi:**

Azərbaycan poeziyasının təməl daşlarını qoyan görkəmli sənətkarlar arasında bu il anadan olmasının 110 illiyini qeyd etdiyimiz xalq şairi Rəsul Rzanın öz yeri, öz səsi vardır. Azərbaycan Respublikasının bütün mədəniyyət və təhsil ocaqlarında XX əsr ədəbiyyatımızın görkəmli nümayəndələrindən olan Dövlət mükafatı larureatı, Sosialist Əməyi Qəhrəmanı, xalq şairi Rəsul Rzanın 110 illik yubileyinin yüksək səviyyədə qeyd olunması nəzərdə tutulur. Bu münasibətlə, respublikamızın hər bir yerində silsilə tədbirlərin keşirilməsi planlaşdırılmışdır. Kitabxanalarda, məktəblərdə, lisey və gimnaziyalarda, muzeylərdə və s. yerlərdə Rəsul Rzanın yubileyi ilə əlaqədar bir sıra tədbirlər planı hazırlanmışdır ki, belə tədbirlərin siyahısı genişdir. Xalq şairi Rəsul Rzanın yubileyi ilə bağlı F.Köçərli adına Respublika Uşaq Kitabxanasında bir çox tədbirlərin

keçirilməsi nəzərdə tutulmuşdur ki, bunlardan kitab sərgilərini, şeir müsabiqələrini, oxucu konfranslarını, səhərcikləri, xatirə gecələrini, ədəbi-bədii gecələri nümunə gətirmək olar. İlk öncə kitabxanada Rəsul Rzanın yubileyi ilə bağlı **kitab sərgisi**nin keçirilməsi vacibdir. Sərgidə Rəsul Rzanın indiyə qədər çap olunmuş kitabları ilə yanaşı, dövrü mətbuatda da yer alan materialların nümayişi nəzərdə tutulmuşdur. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: "Rəsul Rza-110", "Poeziyada yaşayan həyat", "Həmişə ön sıralarda", "Sərhədlər aşan poeziya", "Şair ömrü", "Çinar ömrün əzəməti" və s.

İndi isə sərginin nümunəsini veririk:

1. Başlıq: Rəsul Rza-110.
2. Görkəmli insanların Rəsul Rza haqqında söylədikləri.
3. Dövrü mətbuatda çap olunan məqalələrin kartotekası.
4. Kitablarının nümayişi.
5. Şeir parçası.

***Anamızın saf südünə and olsun!***
***Alqışına, öyüdünə and olsun!***
***Zəfər adlı böyük günə and olsun!***
***Azadlığın bayrağını hər zaman***
***Azərbaycan qoruyacaq yağıdan!***

Rəsul Rza

# Kitab sərgisi



























***Görkəmli şəxsiyyətlərin Rəsul Rza haqqında söylədikləri :***

Zaman göstərir ki, Rəsul Rza poeziyası əbədiyaşar poeziyadır, onun yaradıcılığı gündən-günə gəncləşərək, daima müasir qalır, hər zaman öz yeni oxucularını tapır.

**Fikrət Qoca**,

*Xalq şairi*

Xalqımızın çınar vüqarlı yenilməz şairi təkcə özünün bu qüdrəti, bu əzəməti ilə deyil, həm də nəcibliyi və həlimliyi ilə doğma xalqının hərarətli qəlbinə, işıqlı yaddaşına əbədi həkk olunmuşdur. O, həmişəyaşar xalq sənətkarıdır.

**Şahin Cəfərov,**

*Professor*

Rəsul Rzanın məhsuldar yaradıcılıq yolunu izlədikcə ixtiyarsız düşünürsən ki, istər sağlığında, istərsə də qoyub getdiyi irsi ilə əsl şairlər həmişə xalqın görən gözü, döyünən ürəyi məqamında dururlar.

**Qəzənfər Paşayev,**

*Rəsul Rza mükafatı laureatı*

Təravətli, odlu şeirin
Yarıb keçir sərt illəri.
Köks ötürüb bir vaxt yəqin,
Deyəcəklər: "Rəsul Rza
Bu ilhama qadir idi.
Bax, o belə şair idi!

**Aleksey Markov,**

*Rus yazıçısı*

“Sadə bir ürək” döyünərdi sinəsində bu böyük insanın. Ancaq bu ürəkdə bütün insanlığa böyük bir məhəbbət alovlanardı, “yer üzündə bircə insan acsa mənə toxunma”, yazardı. Doğma torpağa, elə, Vətənə, ölçüyəgəlməz məftunluq vardı. “Belə məğrur dayanmağa haqlıyam.
Mən kökümlə bu torpağa bağlıyam” qürurla deyərdi Rəsul Rza. Hər cür qeybətdən, dedi-qodudan, riyadan uzaq idi Rəsul Rza. Sərt idi, saf idi. Qayğıkeş idi Rəsul Rza.

Özü demişkən:”Fırtınada, qasırğada əyilmədi. Acizlik, qorxu nədir bilmədi. Yaşadı Çinar kimi”. Yaşadı. “Bir ömür ki, həm yoxuşu şərəfli, həm dözümlü enişi”. Bir şair yaşayır min-min oxucu ürəyində. Yazdığı misralarda döyünür şair qəlbi. Yenə əvvəlki tək, əvvəlkindən də artıq sevilir, oxunur. Bəlkə də bundan sonra daha da artıq bir məhəbbətlə seviləcək, oxunacaq Rəsul Rza.

Əziz oxucular bu gün şairin hər bir şeiri, hər bir misrası bizim üçün daha əziz və doğmadır. İrqindən, millətindən asılı olmayaraq, Rəsul Rza yaradıcılığı ilə tanış olan hər bir oxucu onun yüksək dərəcədə poetik söz demək qüdrətinə heyran qalmaya bilmir. Belə olmasa idi, uzaq Kanadada şairin “Rənglər”silsiləsindən ibarət olan şeirlər kitabı üç dəfə təkrar çap olunmazdı. Bəli, onu bax beləcə sevirlər. Azərbaycanda da, uzaq Kanadada da, Danimarkada da, Fransada da, Moskvada da...

Kitabxanada həmçinin oxucuların dəyər verdiyi tədbirlərdən biri də **sual-cavab** gecələridir. Gecədə kitabxanaçı Rəsul Rzanın həyat və yaradıcılığı ilə bağlı oxuculara bir sıra suallarla müraciət edir. Məsələn:

1. Rəsul Rzanın bu il neçə illik yubileyini qeyd edirik?

Rəsul Rzanın bu il 110 illik yubileyini qeyd edirik.

2. Rəsul Rza nə zaman və harada anadan olmuşdur?

Rəsul Rza 1910-cu il may ayının 19-da Göyçayda anadan olmuşdur.
3. Rəsul Rzanın ilk şeirlər kitabı neçənci ildə nəşr olunmuşdur?
Rəsul Rzanın “Çapey” adlı ilk kitabı 1931-ci ildə nəşr olunmuşdur.
4. Rəsul Rzanın uşaqlar üçün yazdığı hansı kitablarının adını çəkə bilərsiniz?
Rəsul Rzanın “İlkin məktəbə gedir”, “Balacaların təbiət ensiklopediyası”, “Cücülər”, “Təranənin oyuncaqları” və s. kimi kitablarının adını çəkə bilərik.
5. Rəsul Rzanın “Balacaların təbiət ensiklopediyası” adlı kitabındakı şeirlər hansı heyvanlara, həşaratlara aid edilmişdir?
Rəsul Rzanın “Balacaların təbiət ensiklopediyası” adlı kitabındakı şeirlər demək olar ki, bütün heyvanlara, həşəratlara həsr edilmişdir. Məsələn, Tülkü, Dələ, Porsuq, Pişik, Dəvə, Keçi. Quşlardan Qaraquş, Qartal, Bildirçin, Laçın. Həşəratlardan Dozanqurdu, Əqrəb, Kəpənək, Çəyirtkə və s.
6. Rəsul Rzanın hansı şeirlərində təbiətə vurğunluq tərənnüm edilir?
Rəsul Rzanın “Yeddi çinar”, “Kəklik”, “Nərgiz”, “Göyər çinarım, göyər”, “Kövrək budaq”, “Bahar”, “Yaz gəlir”, “Bal arıları” və s. kimi şeirlərinin adlarını çəkə bilərik.
Uşaq kitabxanalarında ən çox sevilən tədbirlərdən biri **səhərciklər**dir. Səhərcikdə Rəsul Rzanın heyvanlara, həşəratlara aid etdiyi bir çox şeirlərdən istifadə etmək olar. Səhnəni nağıla uyğun olaraq müxtəlif dekorasiya ilə bəzəyirik. (dekorativ ağaclar, təpəciklər, güllər və s.)
Aparıcı səhnəyə daxil olub bir qədər uşaqları təbiət qoynuna səyahətə aparır.

**I aparıcı:** Buludların ətəyində yellənən yaz yağışından göbələk ətri gəlir. Çiçəklər yuxulu, heyrətli, iri gözləriylə üfüqdə gül açan günəşə boylanırlar. Qarışqalar, arılar, kəpənəklər çölə, çəmənə tələsirlər. Quş "kölgəsi" tökülən göllərin gümüşü sinəsi titim-titim titrəyir. Yüzillik çinar qızıl ürgələrin kişnərtisindən diksinir. Açılan səhər təbiətə təzə qayğılar gətirir.

*(Səhnəyə Zürafə, Fil, Çaqqal, Tülkü, Dələ, Porsuq, Ayı, Maral, Dəvə, Pişik və s. rolları ifa edən kiçik yaş qrup oxucular daxil olurlar.)*

**I Oxucu (Zürafə)**:

Boynu uzun zürafə
Boylanır hər tərəfə
Yarpaqları yeməkçin
Hündür-hündür ağacdan
Nə pilləkan gərəkdir,
Ona, nə də nərdivan...

**II Oxucu** (Fil):

Bu dişləri şirmayı fil
Ömür sürür neçə yüz il.
Qulaqları kürək kimi,
Ayaqları dirək kimi.
Hündürboydur, yorğunpaça,
Gözləri var bapbalaca.

**III Oxucu (Çaqqal):**

Çaqqal qorxaq heyvandır,
Gecələr ulayır bərk.
Toyuq oğurlayandır,
Qaçır it səsi gəlcək.
Gəlib xəlvət dayanır.
Qaranlıqda gözləri
Bir cüt şam kimi yanır.

**IV Oxucu (Tülkü):**
Tülkülər cürbəcürdür
Qarası var, ağı var.
Çox yerdə sarı-kürən
Tülkülər yaşayırlar.
Gözləri, qulaqları
Xırda olur tülkünün.
Gizlənir yuvasında
Gündüzləri, bütün gün.
**V Oxucu (Dələ):**
Bu quyruğu uzun dələ,
Bir yaşında deyil hələ.
Adət edib tullanmağa
Bu budaqdan o budağa.
Qoz fındığı şaraq-şaraq
Dişlərində sındıraraq,
Yeyir, yaman nadincdir o,
Çox hiyləgər, çox bicdir o.
**VI Oxucu (Ayı):**
Qalxıb gəzə bilirlər
Qıllı çoban itləri
Duyuq düşməsə əgər
Oğurlayıb qoyunu,
Quzunu aparırlar.
Bir də gördün çobanlar
Hay-haray qoparırlar...
İtlər qalxıb hürüşür,
Ayı qorxuya düşür.

Oxucuların çıxışından sonra kitabxanaçı uşaqlara aşağıdakı suallarla müraciət edə bilər:

1. Boynu uzun olan heyvanın adı nədir?
2. Ən uzun ömürlü heyvan hansıdır?

3. “Şələquyruq” hansı heyvana deyirlər?
4. Qöz-fındıq yeməyi hansı heyvan xoşlayır?
Sualları artırmaq da olar.

Qeyd etdiyimiz kimi, Rəsul Rza XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindəndir. O, söz sənətimizə forma və məzmunca yeniliklər gətirərək novator şair kimi geniş şöhrət qazanmışdır. Azərbaycan dilinin poetik potensialının yeni-yeni imkanlarını üzə çıxaran Rəsul Rza yarım əsrə yaxın dövr ərzində yüksək dəyərli bədii nümunələr meydana gətirməklə yanaşı, respublikamızın elmi-mədəni həyatında yaxından iştirak etmiş, dolğun və səmərəli ictimai fəaliyyəti ilə tanınmışdır.

Kitabxanada Rəsul Rza irsinin oxucular arasında təbliği üçün keçiriləcək tədbirlərdən biri də **şeir müsabiqəsi**dir. Şeir müsabiqəsi oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Çünki, bu tədbir uşaqlarda şeiri daha dərindən duymaq, başa düşmək haqqında təssəvvür oyadır. Müsabiqədə şairin **“Mən torpağam”**adlı şeirini oxucuların ifasında dinləmək daha maraqlı olardı. İndi isə gəlin “Mən torpağam”adlı şeirdən bir parçanı oxucuların ifasında dinləyək.

**I oxucu:** Mən torpağam, məni atəş yandırmaz
Tərkibimdə kömürüm var, külüm var,
Mən baharam çəmən-çəmən
Çiçəyim var, gülüm var.
Mən küləyəm, əsməsəm,
Kim bilər ki, mən varam.
Mən buludam, səhraları susuz görüb,
Ağlaram.
Mən ürəyəm, döyünməsəm
Ölərəm.

**II oxucu:** Mən insanam, sadə insan əlinin
Yaratdığı nemətlərlə öyünməsəm,
Ölərəm.
Mən işığam qaranlığın qənimi.
Mən insanam, daşıyıram qəlbimdə
Dünyaların sevincini, qəmini.
Maraq dolu gözəm mən,
Baxmaya bilmərəm.
Qarlı dağdan süzülən çayam mən,
Axmaya bilmərəm.
Mən insanam, vətənim var, elim var.
Ən böyük həqiqəti, azadlığı, məhəbbəti, nifrəti
Söyləməyə qadir olan dilim var.

Gördüyünüz kimi, Rəsul Rza "Mən torpağam" şeirində insanı yüksək qiymətləndirir, insan əlinin yaratdığı nemətləri görüb sevinir, zəhmətə qiymət verməyi bacarır. İnsanı hətta buluda bənzədir. Bulud susur, səhraları görüb yağış yağdırır, səhraları suvarır. İnsan da çətinliyə düşənlərə, darda qalanlara kömək əlini uzadır, xeyirxah işləri ilə onları sevindirir. İnsanı gözə bənzədir.

Mən insanam, vətənim var, elim var.
Ən böyük həqiqəti Azadlığı, məhəbbəti, nifrəti
Söyləməyə qadir olan dilim var.

Şair böyük vətənpərvər kimi vətəni ilə, dili ilə fəxr edir. Ana dilinin qüdrətli, zəngin olduğunu da şeirində vurğulayır. Sonda uşaqlara bu şeirlə bağlı **inşa yazmaq** da tapşırılır. Kitabxanada keçirilməsi nəzərdə tutulan tədbirlərdən biri də **ədəbi-bədii gecə**dir. Kitabxanaçı bu tədbirə şairin oğlu, görkəmli yazıçımız Anarla yanaşı, bir sıra qonaqları da dəvət edə bilər. Beləki, tədbir iki hissədən ibarət olur. Tədbirin birinci hissəsi çıxışlar, məruzələrlə başlanır. Gecəyə dəvət

olunan qonaqların çıxışları dinlənildikdən sonra tədbirin ikinci hissəsi başlayır. İkinci hissədə Rəsul Rzanın şeirləri ilə yanaşı, sözlərinə bəstələnmiş musiqilər oxucuların ifasında səslənir. Hazırladığımız **"Şair ömrü"** adlı ədəbi-bədii gecənin ssenarisini veririk: "Şair ömrü"adlı başlıq divardan asılır. Səhnə gül dəstələri ilə bəzədilir. Rəsul Rzanın portreti səhnənin görkəmli yerindən asılır. Səhnənin bir tərəfindən aşağıdakı şeir parçası yerləşdirilir.

Dünya səndən kim keçdi,
Kim qərq oldu, kim keçdi?
Yadıma kimlər düşdü,
Xəyalımdan kim keçdi?

*(Aparıcılar səhnəyə daxil olurlar.)*

**I Aparıcı:** Ömür üçün son ucu ölümlü dünyanın sənət üçün son ucu, son nöqtəsi yoxdur. Nə yaxşı ki, belədir. Nə yaxşı ki, sən varsan, poeziya. Dünyadan keçənləri özündə qərq etməyən, yaşadan, yaddaşlara, ürəklərə köçürən poeziya. Məhz bunun üçün minnətdarıq sənə, poeziya. Sən yaşadıqca onlar da yaşayır. Nə qədər ki, sən varsan, onlar da var. Rəsul Rza və Nigar Rəfibəyli. Axı onlara qanad verib ən uzaq poeziya üfüqlərinə uçuran da sən olmusan. Ən ağır dəqiqələrində belə bu iki könül həmdəminə həyan da sən olmusan, heyran da sən olmusan. Özün ad olub ürəklərində yanmısan, oduna yandırmısan onları. Yaşatmısan, yaşadırsan, yaşadacaqsan onları.

**II Aparıcı:** Çinar ömürlü, həzin xəyallı iki böyük insan, iki böyük sənətkar...Göyçayda, güllü bir may səhəri dünyaya gəlmişdi Rəsul Rza. Və bəlkə hələ heç kim, heç kəs bilmirdi ki, Azərbaycan torpağının şeriyyət hopmuş ruhundan doğan bu adi ad sonralar insanlara çox şey deyəcək,"mən ürəyəm, döyünməsəm ölərəm!"inamı ilə yaşayan, yaradan bir şairin bənzərsiz məhəbbətindən, həyat eşqindən söhbət açacaq

gələcək nəsillərə. İllər keçəcək, nəsillər dəyişəcək, odlu sətirlərindən arzular, ümidlər nur alan, arzu, əməl yolunda özü də yana-yana alovlanan şairin xatirəsi "Bir parça ürək idi Rəsul" anımı ilə xatırlanacaq.

**I Aparıcı:** Rəsul Rzanın saf, təmiz gözlərinə baxanda adamda öz qüvvəsinə inam hissi daha da qüvvətlənirdi, adamda yaşamaq eşqi yaradırdı. Bu gün hərəsi bir xatirədir bu sözlər. Ölümsüz insan haqqında ölümsüz xatirələr, bu ölümsüz xatirələrdə Rəsul ömrünü Nigar bəzəyir, sonsuz məhəbbətilə, mətanətilə, ürəyilə. Və beləliklə, şairə Nigar Rəsul Rza ömrünə həmişəlik daxil olur, bir də heç bir zaman ayrılmamaq üçün.

**Oxucu:**

Xəyalın yanımda, sən uzaqdasan,
Hicranın yolları ömür qədərdir.
Bu yalqız axşamda yuvama baxsan,
Mənəm, xəyalındır, bir də kədərdir.

***

Bir sən ol, bir də mən, bir də dərdimiz,
Ağlayaq, doyunca, gülək doyunca.
Baş-başa qaldıqca bu möhlətlə biz
Döysün qapıları külək doyunca.

***

Döysün qoy açmayaq.
Yorulsun külək,
Qəmli hicran qalsın qapıda dustaq!
Bir an vüsalınla çırpınsın ürək,
Sonra... sonra yenə biz ayrılmayaq!

**I Aparıcı:** Bu misralar şairin son yazdığı şeirlərindəndir. Məhz buna görə də misraların həzinliyi qəlbini titrədir, bütün varlığınla hiss edirsən ki, zamanın sürətli axını bu ürəyə toxuna bilməyib, əksinə bu ürəkdəki kövrək məhəbbətə yeni bir məlahət bəxş edib. Onları birbirinə bu qədər yaxınlaşdıran bir də doğma torpağa hədsiz- hüdudsuz məhəbbət idi ki, elə öz-özünə nəğmələnirdi. Bəlkə elə buna görə də çiçək qoxuludur, torpaq ətirlidir Nigarın misraları.

Gəldim çiçəklərlə, vidalaşmağa,
Gördüm ki, yaşlıdır gözü güllərin.
Bəlkə gileylidir, şikayəti var,
Bəlkə vardı mənə sözü güllərin...

**II Aparıcı:** Qeyd etdiyimiz kimi, Rəsul Rza özünün yaradıcılıq metodu, sənətkarlıq xüsusiyyəti ilə həmişə fərqlənən orijinal şairdir. Poeziya aləmində bu sənətkarın öz üslubu, öz dəsti-xətti var. Onun sənət aləminin məzmun və mündəricəsinə diqqət yetirdikdə bu sənətin yalnız Rəsul Rzaya məxsusluğunu çətinlik çəkmədən görürsən. Rəsul Rza heç kimi yamsılamır, heç kəsi təkrarlamır. Rəsul Rza ömrü yalnız şərəfli, dözümlü, heç kəsə baş əyməmiş kişi ömrü olduğuna görə deyil, həm də dəyişən dövranların, zamanların ərzində öz varlığını, "mən"ini, təməl dəyərlərini qoruyub saxladığı üçün Çinar ömrüdür. İyirmi beş yaşın "Çinar"ından qoca yaşların "Çinar ömrü"nə qədər uzanan, dönmədən, azmadan, sapmadan qət edilmiş bir həyat yoludur.

Gecə keçmiş, ulduzlar ağ, göy qara...
Söykənmişəm qocaman bir çinara.
Gecə qara durdum, düşündüm bir az,
Dedim:- Nədən ulu çinar yıxılmaz?
Birdən çinar dilə gəldi, dedi:-Bax!
Bu torpaqda dərindən kök salaraq,
Hər tərəfə uzatmışam qolumu,

Övladlarım bürüyüb sağ-solumu.
Belə məğrur dayanmağa haqlıyam,
Mən kökümlə bu torpağa bağlıyam.

**I Aparıcı:** Xalqımızın çinar vüqarlı yenilməz şairi təkcə özünün bu qüdrəti, bu əzəməti ilə deyil, həm də nəcibliyi və həlimliyi ilə doğma xalqının hərarətli qəlbinə, işıqlı yaddaşına əbədi həkk olunmuşdur. O, həmişəyaşar xalq sənətkarıdır.

**Ədəbiyyat siyahısı:**

Əsərləri: 1. Rəsul Rza. Seçilmiş əsərlər: Beş cilddə. I cild.- B.: Azərnəşr, 2002.- 458 s.
2. Rəsul Rza. Seçilmiş əsərlər: Beş cilddə. II cild.- B.: Azərnəşr, 2002.- 435 s.
3. Rəsul Rza. Seçilmiş əsərlər: Beş cilddə. III cild.- B. : Azərnəşr, 2002.- 431 s.
4. Rəsul Rza. Seçilmiş əsərlər: Beş cilddə. IV cild.- B.: Azərnəşr, 2002.- 463 s.
5. Rəsul Rza. Seçilmiş əsərlər: Beş cilddə. V cild.- B. : Azərnəşr, 2002.- 457 s.
Haqqında Dövrü mətbuatda:
Abdin T. Rəsul Rza ilə üz-üzə və Rəsul Rza haqqında : Rəsul Rza-100 / T. Abdin // Ulduz.- 2010.- № 4.- S.11-21.
Axundov A. Rəsul Rza və ana dili : Rəsul Rza - 100 / A. Axundov // Ədəbiyyat qəzeti.- 2010.- 14 may.- № 19.- S.3-4. Allahverdiyev V. Rəsul Rza yaradıcılığında yeni fikir, forma və məzmun axtarışları / V. Allahverdiyev // Xalq qəzeti.- 2010.- 18 aprel.- № 82.- S.7.
Babaoğlu. Böyük sənət simsarı: Rəsul Rza - 100 / Babaoğlu // Qobustan.- 2010.- № 2.- S.5-7.
Baxış E. Boy ; Rəsul Rzanın ölümü ; şerlər / E. Baxış // Ulduz.- 2008.- №11.- S.31- 35.
Bayat F. Düşüncələr şairi - Rəsul Rza : Rəsul Rza - 100 / F. Bayat // Ulduz.- 2010.- № 5.- S.18- 23.
Bəhmənli V. Hər budağı dözümlü bir xatirə : Rəsul Rza haqqında / V. Bəhmənli // Mədəniyyət.- 2010.- 29 yanvar.- № 6-7.- S.22-23.
Bəndəroğlu Ə. Xalq şairi Rəsul Rza : Rəsul Rzanın İraqda çap olunmuş kitabı haqqında / Ə. Bəndəroğlu // Ədəbiyyat qəzeti.- 2007.- 3 avqust.- S.3.

Cəmil A. Lirik ovqat şairi : Adil Rəsul haqqında / A. Cəmil // Ədəbiyyat qəzeti.- 2008.- 23 may.- S.6.

Əlibəyli G. Düşündürən poeziya : Rəsul Rza haqqında / G. Əlibəyli // Pəncərə. - 2010.- № 23 (May).- S.78-83.

Əliyeva M. Sənət dünyasının inciləri : qrafika ustası Rəsul Hüseynov haqqında / M. Əliyeva // Respublika.- 2009.- 9 avqust.- № 174. - S.3.

Əsgəroğlu Ə. Rəsul Rza yüz ilin sözüdü : şeir / Ə. Əsgəroğlu // Ədəbiyyat qəzeti.- 2010.- 14 may.- № 19.- S.8.

Əsrlərə sığmayan şair ömrü : xalq şairi Rəsul Rzanın 100 illik yubileyinə həsr olunmuş poeziya gecəsi // Azərbaycan.- 2010.- 20 may.- № 108.- S.5.

Hacızadə A. Moskvada xalq şairi Rəsul Rzanın 100 illik yubileyi qeyd edildi / A. Hacızadə // Ədəbiyyat qəzeti.- 2010.- 18 iyun.- № 24.- S.2.

Hacızadə N. Yaddaşımın Rəsul Rza səhifələri / N. Hacızadə // Azərbaycan.- 2006.- № 2.- S.72-109. Həmzəqızı Ş. Kişi şair : Rəsul Rza - 100 / Ş. Həmzəqızı // Ulduz.- 2010.- № 4.- S.29.

Həsənəliyeva N. Rəsul Rza ulduzu : şair Rəsul Rza yaradıcılığı haqqında / N. Həsənəliyeva // Təhsil problemləri.- 2007.- 11-20 noyabr.- S.11.

Həsənova C. Virtual məkanda : Rəsul Rza - 100 ; veb-sayt haqqında / C. Həsənova // Ədəbiyyat qəzeti.- 2010.- 28 may.- № 21.- S.2.

Həsənova S. Rəsul Rza və ədəbi dilimiz : Rəsul Rza - 100 / S. Həsənova // Azərbaycan.- 2010.- № 5.- S.25-29.

Hüseynoğlu S. Ustad Rəsul Rza anıldı / S. Hüseynoğlu // Ədəbiyyat qəzeti.- 2009.- 3 aprel.- S.3.

Xəlilzadə F. Sabahımızın poeziyası : Rəsul Rza - 100 / F. Xəlilzadə // Azərbaycan. - 2010.- 19 may.- № 10.- S.7.

Kamal R. Rəsul Rza: Günün işıq fəlsəfəsi : Rəsul Rza - 100 / R. Kamal // Azərbaycan.- 2010.- № 5.- S.22-24.
Qasımbəyli Y. Mərkəzi Asiya ədəbiyyatında Rəsul Rza obrazı : Rəsul Rza - 100 / Y. Qasımbəyli // Ədəbiyyat qəzeti.- 2010.- 14 may.- № 19.- S.6.
Qasımzadə İ. İkinci yüzilinə xoş gəldin : Rəsul Rza - 100 / İ. Qasımzadə // Azərbaycan.- 2010.- № 5.- S.10-11.
Qəşəmoğlu Ə. Rəsul Rza-söz sənətimizə forma və məzmunca yenilik gətirən novator şair / Ə. Qəşəmoğlu // Yeni Azərbaycan.- 2010.- 9 fevral.- № 23.- S.11
Quliyev Q. Təbrizin yolları oyum-oyumdur. R. Rzanın bir şeri haqqında etüd / Qorxmaz Q. // Ulduz.- 2005.- sentyabr.- № 9. S-69-71.
Məmmədova T. Rəsul Rzanın ev muzeyi yenidən açıldı / T. Məmmədova // Mədəniyyət.- 2010.- 19 may.- № 32.- S.4.
Məmmədov Ş. İnsan - əbədi və əzəli torpaq : R.Rzanın "Mən torpağam" şeirinin tədrisi ilə bağlı qeydlər / Ş. Məmmədov // Azərbaycan müəllimi. - 2009.- 27 fevral. - S.6.
Mərdanova S. Rəsul Rzanın "Qızılgül olmayaydı" poemasında lirik ricətlər / S. Mərdanova // Azərbaycan dili və ədəbiyyatı tədrisi.- 2009.- № 1.- S.26-29.
Məsim E. Ölümə nəğmə ; Rəsul Rza haqqında iki şeir ; Bir gilə əzab və b. şeirlər / E. Məsim // Ulduz.- 2010.- № 2.- S.59-60.
Mirzəbəyli İ. Həyatın özü kimi şirin-acı xatirələr : Bülbül, Mir Cəlal, Rəsul Rza, İLyas Əfəndiyev... ömrünün indiyədək yazılmayan incə məqamları / İ. Mirzəbəyli // Xalq qəzeti.- 2010.- 4 aprel.- № 70.- S.8.
Novruzov T. Sabir ənənələri Rəsul Rza yaradıcılığında / T. Novruzov // Xalq qəzeti.- 2006.- 31 may.- S.7.

Paşayev Q. Tərifdən yuxarıda duran şair : Azərbaycan Yazıçılar Birliyi - 75 : Rəsul Rza haqqında / Q. Paşayev // Azərbaycan.- 2009.- 20 fevral.- S.10.

Rəsul Rzanın 100 illik yubleyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (14 yanvar 2010-cu il) // Azərbaycan Müəllimi.- 2010.- 15 yanvar.- № 2.- S.1.

Rəsul Rzanın 100 illiyinə həsr olunmuş elmi sessiya // Xalq qəzeti.- 2010.- 13 may.- № 102.- S.6.

Rəsul Rza haqqında deyilənlər // Ədəbiyyat qəzeti.- 2010.- 5 fevral.- № 5. - S.1.

Rəsul Rza mükafatları təqdim edildi : Xalq şairi doğum günü ərəfəsində yad olundu // Yeni Azərbaycan.- 2007.- 18 may.- S.12.

Rübail. Dedi ki, dünənki şeri oxu... : Rəsul Rza - 100 / Rübail // Ədəbiyyat qəzeti.- 2010.- 14 may.- № 19.- S.8.

Rza O. Salam, poeziya cəngavərinə : Rəsul Rzaya həsr olunmuş şeir / O. Rza // Ədəbiyyat qəzeti.- 2010.- 14 may.- № 19.- S.8.

Seyidov Ə. Mən ürəyəm, döyünməsəm - ölərəm : Azərbaycan şairi Rəsul Rza haqqında / Ə. Seyidov // Xalq qəzeti.- 2010.- 25 aprel.

Sərvaz. Çinar ömrünün ucalığı : Rəsul Rza - 100 / Sərvaz // Ədəbiyyat qəzeti. - 2010.- 7 may.- № 18.- S.4.

Sərvaz. Elmi sessiya : Rəsul Rza - 100 / Sərvaz. //Ədəbiyyat qəzeti.- 2010.- 14 may.- № 19.- S.1,3.

Sərvaz. Rəsul Rza bu gün də var, sabah da.../ Sərvaz // Ədəbiyyat qəzeti.- 2009.- 22 may.- S.2.

Sərvaz. Sənə eşq olsun, həyat! : Rəsul Rza - 100 / Sərvaz. // Ədəbiyyat qəzeti.- 2010.- 21 may.- № 20.- S.3.

Şeirimizin tut ağacı : Rəsul Rza - 100 // Mədəni Maarif.- 2010.- № 4.- S.20-25.

Türkiyədə Rəsul Rzanın yubiley tədbirləri : Rəsul Rza - 100 // Ədəbiyyat qəzeti.- 2010.- 30 aprel.- № 17.- S.3
Ülvi A. Flora Xəlilzadənin yeni kitabı : 1934-cü ildə "Azərbaycan Yazıçılar Cəmiyyəti" adı altında təşkil edilən AzərbaycanYazıçılar Birliyinin təşkilatçıları haqqında / A. Ülvi // Xalq qəzeti.- 2009.- 6 oktyabr.- № 221. - S.8.
Yusifli V. Azərbaycan sərbəst şeiri : mülahizələr / V. Yusifli // Azərbaycan. - 2008.- № 10.- S.165-181.
Yusifli V . Bir daha "Rənglər" silsiləsi haqqında : Rəsul Rza - 100 / V. Yusifli // Ədəbiyyat qəzeti.- 2010.- 16 aprel.- № 15.- S.1, 3.
Yusifli V. Pəncərəmi açdım sabaha... : Rəsul Rza - 100 / V. Yusifli // Azərbaycan.- 2010.- № 5.- S.12-22.
Yusifli V. Rəsul Rza: dünənin, bu günün, gələcəyin şairi / V. Yusifli // Mədəniyyət.- 2010.- 14 may.- № 31.- S.13.
Yusifli V. Rəsul Rza və əbədi gənclik : Rəsul Rza-100 / V. Yusifli // Ulduz.- 2010.- № 4.- S.22-28.
Yusifoğlu R. Rəsul Rza yaradıcılığında poema janrı / R. Yusifoğlu // Azərbaycan dili və ədəbiyyat tədrisi.- 2010.- № 2(Aprel-iyun).- S.11-14.

# Ədəbiyyatımızda Rəsul Rza əzəməti

**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 23
Çapa imzalanmışdır: 14.04.2020
Tirajı:100
Pulsuz